


# Vətənini canından artıq sevən qəhrəman Araz...

**Masallı şəhərində boya-başa çatan Araz Elsevər oğlu Seyfullayev özünü dərk etdiyi gündən bütün istəyini, həyatının mənasını xalqla, vətənlə bağlayır.**

Qurub-yaratmaqla, gözəl əməllər qoymaqla insanların ürəyinə nüfuz etməyi də bacarır. Və ömrü boyu yaxşılıq etməyi özünə ali məqsəd seçir. Təəssüf ki, erməni dığaları bu ürəyi sevdalı, qəlbi min diləkli gəncin çox arzusunu yarımçıq qoyur...

Araz 2019-cu ildə Milli Ordumuzda xidmətə başlayır. Vətənə layiqli oğul olmaq üçün ilk gündən müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirir. Fədakar, cəsur, sədaqətli bir vətən sevdalısı kimi əsgərlərin, komandirlərin yanında başıuca olur. Bir müddət sonra Xüsusi Təyinatlı Qüvvələrə qatılır. Təlimlərdə fəal olur, vətənin müdafiəsi naminə keçirilən əməliyyatlarda əla döyüşçü keyfiyyətləri nümayiş etdirir. Həm də şanlı ordumuzun gücünü görüb fəxr hissi keçirir. Bilir ki, yalnız cəsur, mərd, qeyrətli oğlanların hesabına Qarabağ torpaqlarını murdar düşmən tapdağından təmizləmək olar. Azərbaycanın hər qarış torpağının müqəddəsliyinə ürəkdən tapınır, çətində onun uğrunda ölməyi özünə böyük şərəf sayır.

Bəli, Araz ürəyinin istəyini əsas götürərək, əsir Qarabağın yağıtapdağından azad olunması naminə başlanan Vətən müharibəsinə əsl igid kimi qatılır. Füzuli, Cəbrayıl rayonlarının alınmasında misilsiz qəhrəmanlıq örnəyi göstərir. Ölümə meydan oxuya-oxuya dığaları diz çökdürür. Addım-addım, səngər-səngər Şuşaya, Zəfər günümüzə yol aldıqca Vətən ona canından da əziz görünür. Elə Vətən yaşasın deyə son nəfəsinə qədər müharibə meydanında intiqam hissi ilə vuruşur, məqamı gələn anda canını, qanını ondan əsirgəmir. Və Vətəninə əbədi bağlanmaq üçün şəhidlik zirvəsinə ucalıb, Vətən torpağına qarışır...

Xalq öz vətənpərvər oğlunu heç vaxt unutmaz. Dövlət tərəfindən də Arazın Vətən, torpaq uğrunda göstərdiyi şücaət öz layiqli qiymətini alıb. Təltif olunduğu "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları buna gözəl nümunədir.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər 2021.- 5 fevral.- S.11.